*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 29 fevral 2020-ci il | № 16 (2434) | Qiyməti 30 qəpik


# Prezident İlham Əliyev Xocalı soyqırımı qurbanlarının xatirəsini anım mərasimində iştirak edib






1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu faciədən 28 il ötür. Həmin kütləvi qırğın nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla, 613 nəfər amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, 155 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideynlərindən birini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı soyqırımı qurbanlarının xatirəsini anırlar.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar anım mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva anım mərasimində iştirak etdilər.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Birinci xanım Mehriban Əliyeva, dövlət və hökumət nümayəndələri, ölkəmizdəki dini konfessiyaların rəhbərləri abidənin önünə gül dəstələri qoydular.

Xocalı faciəsi 200 ilə yaxın bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin davamı və qanlı səhifəsidir. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, 3 nəfər diri-diri yandırılıb, başlarının dərisi soyulub, bədən əzaları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə deşik-deşik edilib. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və qismən məhv edilməsi niyyəti ilə törədilməsi Xocalı faciəsinin beynəlxalq hüquqa əsasən məhz soyqırımı olduğunu təsdiq edir.

Dünya bu acı həqiqəti bilməli və insanlığa qarşı törədilən bu fakt öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir. Prezident İlham Əliyev Xocalı faciəsinin təcavüzkar erməni millətçilərinin yüz illiklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib. Çünki XX əsrin sonunda dünyanın gözü qarşısında baş verən bu kütləvi qırğın hadisəsi öz amansızlığına və qəddarlığına görə təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə və insanlığa qarşı törədilən cinayət idi.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Xocalı faciəsi əsl siyasi və hüquqi qiymətini aldı. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı Soyqırımı Günü kimi qəbul etdi. O dövrdən başlayaraq dünya azərbaycanlıları soyqırımının bütün dünyada tanıdılması istiqamətində fəallığa çağırıldı, bununla əlaqədar onlara müraciət edildi. Həmin vaxtdan Azərbaycan diasporu Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəal iş görməyə başlayıb. Xocalı soyqırımı qurbanlarının xatirəsi bu gün dünyanın yüzlərlə şəhərlərində anılır. Qanlı qırğınla bağlı faktlar növbəti ildönümündə də beynəlxalq təşkilatlar qarşısında bir daha nümayiş etdirilir.

Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun da xüsusi xidmətləri var. Fond Xocalı soyqırımı ilə əlaqədar xarici ölkələrdə layihələr həyata keçirir. Məqsəd bu soyqırımının dünya ictimaiyyətinə çatdırılması və erməni vəhşiliklərini əks etdirən materialların beynəlxalq təşkilatlar qarşısında nümayiş etdirilməsidir. Fondun həyata keçirdiyi "Qarabağ həqiqətləri" silsiləsi və işğal olunan ərazilərdə mədəni-tarixi abidələrin dağıdılması ilə bağlı ingilis dilində nəşr olunan kitab və bukletlər xaricdə yayılır. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanan "Xocalıya ədalət!" kampaniyası çərçivəsində dünya ölkələrində mitinqlər, yürüşlər və tədbirlər təşkil olunur.

Yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü artıq ifşa olunub və dünya ictimai fikri Xocalı həqiqətlərini qəbul etməyə başlayıb. Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərar və qətnamələrində əks olunur. Dünyanın 56 ölkəsinin üzv olduğu İslam Əməkdaşlıq Təşkilatı Xocalı faciəsini insanlığa qarşı cinayət kimi qiymətləndirib və onu soyqırımı kimi tanıyıb. Təşkilat üzv dövlətləri həmin faciəyə müvafiq siyasi-hüquqi qiymət verməyə çağırıb. İndiyə qədər 10-dan çox ölkə Xocalı qətliamını soyqırımı kimi tanıyıb.

Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirdi, qəhrəman oğul və qızlarımızı müqəddəs Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etdi. Hər il soyqırımı qurbanlarının əziz xatirəsinin ümumxalq səviyyəsində yad edilməsi onu göstərir ki, Xocalıda ermənilərin həyata keçirdiyi dəhşətli qətliam xalqımızın yaddaşından heç vaxt silinməyəcək, gələcək nəsillər Xocalı soyqırımının dəhşətlərini heç zaman unutmayacaq, bu soyqırımını həyata keçirənlər gec-tez ədalət məhkəməsi qarşısında cavab verərək layiqli cəzalarını alacaq, şəhidlərimizin qanı yerdə qalmayacaq.

Ermənilər Xocalı soyqırımını törətməklə xalqımızın mübarizə əzmini qırmaq istədilər. Amma faciələrimiz bizi daha da möhkəmləndirdi. Biz bir xalq olaraq daha güclü və əzmli olduq. Biz güclü dövlət yaratdıq. O dövlət ki, bu gün dünyada söz və nüfuz sahibidir. Azərbaycan dostluq və tərəfdaşlığın nümunəsini dünyada yayan və təbliğ edən ölkələr sırasındadır. İqtisadi və siyasi gücünü durmadan artıran, regionda sülhün və təhlükəsizliyin təmin olunmasına töhfələr verən ölkəmiz Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, ərazi bütövlüyü çərçivəsində həllinə də nail olacaq. Bunu şərtləndirən ən böyük amillər xalqımızın vətənpərvərliyi, döyüşkən ruhu, torpağa məhəbbəti, həmçinin dövlətimizin başçısının uğurlu siyasəti və qətiyyətli mövqeyidir.

"Ermənilərin fikri özlərinə getməsin. Onlar bəlkə də öz tarixi vətənini unuda bilərlər. Azərbaycan xalqı heç vaxt öz tarixi Vətənini unuda bilməz. Bu gün qaçqın şəhərciklərində, Bakıda, başqa yerlərdə Dağlıq Qarabağdan, işğal edilmiş bölgələrdən olan ailələrdə doğulan uşaqlar bir amalla, bir arzu ilə yaşayırlar ki, doğma torpaqlarına qayıtsınlar", - deyən Prezident İlham Əliyevin bu fikrinin təməlində çox güclü ideya dayanır: Biz öz tarixi torpaqlarımıza qayıdacağıq! Bu, bütün əzmini, dəyanətini canilərin məsuliyyətə cəlb olunmasına, belə kütləvi vəhşilik və soyqırımlarının bir daha təkrarlanmamasına yönəldən Azərbaycan dövlətinin zəfər yürüşü olacaq.

# Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası keçirilib

*Müasir geosiyasi şəraitdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi ölkəmizin xarici siyasətinin mühüm tərkib hissəsidir. Hər iki ölkənin dövlət və hökumət başçılarının, eləcə də siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə aidiyyəti qurumlarının rəhbərlərinin qarşılıqlı səfərləri ikitərəfli əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynayır və bütün sahələrdə əlaqələr uğurla inkişaf edərək ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəyə qalxmasına səbəb olur.*



Fevralın 25-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana rəsmi səfər edib. Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.

Görüşdə ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub. Ölkələrimizin həyata keçirdikləri birgə qlobal layihələrin əhəmiyyəti vurğulanıb.

Türkiyə Prezidentinin Azərbaycana səfərinin iki ölkə arasında əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə edilib. Eyni zamanda, görüşdə ikitərəfli münasibətlər, həmçinin qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

Həmin gün Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası keçirilib.

Tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının əhəmiyyətindən və əlaqələrin möhkəmlənməsində oynayacağı roldan söz açıb: "... Bu gün keçirilən Azərbaycan-Türkiyə Strateji Əməkdaşlıq Şurasının növbəti toplantısı əminəm ki, əlaqələrimizin gələcək inkişafı üçün çox önəmli olacaq. Gündəlikdə bir çox məsələlər vardır. Bu məsələlərin müzakirəsi və qəbul ediləcək qərarlar, eyni zamanda, imzalanacaq ikitərəfli sənədlər əlaqələrimizi böyük dərəcədə gücləndirəcək".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə bildirib ki, bu iclas və prezidentlər səviyyəsində ikitərəfli görüş çərçivəsində Azərbaycan-Türkiyə əlaqələrinin bütün - siyasi, iqtisadi, hərbi, ticari, mədəni və s. istiqamətlərini bir daha müzakirə etmək imkanı yaranıb.

Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası başa çatdıqdan sonra Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclasının Protokolu"nu imzalayıblar.

Ölkələr arasında əsasən "Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə Türkiyənin Xarici İqtisadi Əlaqələr Qurumu (DEİK) arasında əməkdaşlığa dair 2020-2021-ci illəri əhatə edən Fəaliyyət Planı"nı, "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Türkiyə Respublikası Prezidenti Administrasiyasının Rəqəmsal Transformasiya Ofisi arasında inteqrasiya olunmuş xidmətlər mərkəzinin və dövlət xidmətlərinin rəqəmsallaşdırılması üçün texniki infrastrukturun yaradılması haqqında Anlaşma Memorandumu", "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ilə Türkiyə Radio Televiziya Qurumu arasında əməkdaşlıq Protokolu", "2013-cü il noyabrın 13-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında təhlükəsizlik üzrə əməkdaşlıq haqqında Saziş"ə Əlavə Protokol"u, "Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında Qars-İğdır-Aralık-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti layihəsi ilə bağlı Anlaşma Memorandumu", "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi", "2012-ci il sentyabrın 11-də imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında texniki tənzimləmə, standartlaşdırma, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya və metrologiya sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun icrasına dair 2020-2022-ci illər üzrə Fəaliyyət Planı"nı, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ilə Türkiyə Rəqabət Qurumu arasında rəqabət siyasəti sahəsində əməkdaşlıq Protokolu", "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında gənclər və idman sahələrində əməkdaşlıq haqqında Saziş"i, "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında energetika və mədənçilik sahələrində əməkdaşlıq haqqında Saziş"i, "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı vizadan azadetmə haqqında Saziş"i və bir sıra xüsusi əhəmiyyətli sənədlər imzalandı.

Azərbaycan Respublikasının Müdafiə naziri Zakir Həsənovun və Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akarın imzaladıqları "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi-maliyyə əməkdaşlığı haqqında Saziş" və "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında maliyyə yardımının tətbiqi haqqında Protokol" da imzalanan sənədlər sırasında idi.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər.

Bəyanatında Türkiyə-Azərbaycan dostluq-qardaşlıq əlaqələrinin əhəmiyyətindən söz açan Azərbaycan Prezidenti İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunub. "Təbii ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları müzakirə edildi. Mən bir daha əziz qardaşıma Türkiyənin Azərbaycanın haqq işinə daim dəstək göstərdiyinə görə təşəkkürümü bildirdim. Bütün beynəlxalq arenalarda Türkiyə hər zaman Azərbaycanın, Azərbaycan xalqının yanındadır. Ancaq Ermənistanın qeyri-konstruktiv mövqeyi münaqişənin həlli üçün əsas maneədir. Ermənistan rəhbərliyinin çox ziddiyyətli və bir-birini inkar edən bəyanatları danışıqlar prosesinə böyük zərbədir. Onlar gah deyirlər ki, Dağlıq Qarabağ Ermənistandır, gah deyirlər ki, Dağlıq Qarabağ müstəqil dövlətdir. Belə çıxır ki, onlar özləri də bilmirlər Dağlıq Qarabağ nədir? Bilmirlərsə, biz deyə bilərik: Dağlıq Qarabağ Azərbaycandır. Bunu biz deyirik, bunu bütün dünya deyir. Bütün dünya ölkələri Azərbaycanın ərazi bütövlüyünü tanıyır, dəstəkləyir və heç bir ölkə Dağlıq Qarabağ adlı qanunsuz qurumu tanımır. Əlbəttə ki, münaqişə ölkəmizin ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı çərçivəsində öz həllini tapmalıdır".

Prezident müdafiə sahəsində işbirliyi və birgə keçirilən hərbi təlimlərdən də söz açıb: "Müdafiə sahəsində birgə gələcək işbirliyi haqqında fikir mübadiləsi aparıldı. Təkcə keçən il 13 birgə hərbi təlim keçirilmişdir. Bu il isə hərbi təlimlərin sayı daha da çox olacaq. Azərbaycan Türkiyədən müasir silahların alınmasını davam etdirəcək və bu gün biz birgə istehsalın təşkili haqqında da danışmışıq".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə bəyanatında da Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII İclasını irəliyə doğru bir addım adlandırıb, eyni zamanda, Prezident İlham Əliyevin uzaqgörən liderliyi ilə Azərbaycanın, bölgənin rifahının və sabitliyinin göz önündə olduğunu vurğulayıb. "Həqiqətən də Prezident İlham Əliyevin uzaqgörən liderliyi ilə xüsusilə Azərbaycanın, bölgəmizin rifahı və sabitliyi göz önündədir... ...Biz Azərbaycanın uğurları ilə fəxr edirik. Bundan sonra bu uğurlara yeni nailiyyətlərin əlavə olunacağına da heç bir şübhəmiz yoxdur. Düşünürəm ki, 20 il əvvəlki Azərbaycan ilə bugünkü Azərbaycanı müqayisə etmək mümkün deyil. Bu gün tamamilə başqa bir Azərbaycan göz önündədir. İnfrastrukturu, quruculuğu ilə daim inkişaf edən, dəyişən bir Azərbaycan var. Təbii ki, burada Azərbaycan iqtisadiyyatının keçən il əldə etdiyi inkişaf islahatlar prosesinin nə qədər doğru olduğunu da ortaya qoymaqdadır. Bu inkişaf bundan sonra da artmaqda davam edəcəkdir. Bunu da görəcəyik".

Prezident onu da bildirib ki, bu gün Türkiyə və Azərbaycan sabitlik abidəsi olaraq yüksəlirlər. "Dörd bir tərəfimizdə münaqişələr, terror və asayiş problemləri yaşandığı bir vaxtda Türkiyə və Azərbaycan bir sabitlik abidəsi olaraq yüksəlirlər. Şübhəsiz ki, buna görə sarsılmaz əlaqələrimiz qədər, güclü ordularımıza da borcluyuq. Bu mənada istər ordularımızın həmrəyliyi, istərsə də müdafiə sənayesi sahəsində atdığımız addımlar da gələcəkdə müstəqilliyimizin ən böyük təminatı olacaqdır. Müdafiə sənayesi sahəsindəki əməkdaşlığımızı inkişaf etdirməyimiz bir baxımdan böyük önəm daşıyır. "Sülh çeşməsi" əməliyyatında Azərbaycan hökuməti və xalqı ilə bir millət, iki dövlət olduğumuzu bir daha dünyaya göstərmişdik.

Hörmətli media nümayəndələri, mərhum Bəxtiyar Vahabzadənin "Anam" dediyi Qarabağ Azərbaycan qədər bizim də məsələmizdir. Dağlıq Qarabağ probleminin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll edilməsi ən böyük arzumuzdur. Azərbaycana bu haqlı mübarizəsində verdiyimiz dəstəyi bundan sonra da davam etdirəcəyik. Minsk qrupunun bu məsələdə təəssüf ki, səmimi davranmadığını da açıq şəkildə ifadə edirəm. Çünki təxminən 25 il vaxt itirilib. Nə üçün və nəyə görə heç bir nəticəyə nail olunmur. Təbii ki, bunun üzərində də dayanmaq lazımdır".

Türkiyə Prezidenti bəyanatında Xocalı qətliamına da toxunub. "Sabah Xocalı qətliamının 28-ci ildönümüdür. Xocalıda insanlığın gözləri önündə məsum, yaşlı, qadın, uşaq demədən XX əsrin ən böyük vəhşətlərindən biri törədilmişdir. 106-sı qadın, 63-ü uşaq olmaqla, 613 soydaşımız xüsusi amansızlıqla qətlə yetirilmişdir. Tarixə "qara gecə" olaraq düşən Xocalı qətliamını unutmadıq, unutmayacağıq. Azərbaycanlı qardaşlarımın, qarabağlı köçkünlərin də Xocalını közərən od kimi ürəklərində daşıdığını bilirəm. İyirmi səkkizinci ildönümündə Xocalı qətliamını törədənləri bir daha şəxsən öz adımdan və millətim adından lənətləyirəm".

Türkiyə Prezidentinin Azərbaycana səfəri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın şərəfinə ziyafət verilməsi və Prezidentin yola salınması ilə başa çatıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə naziri ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə görüşüb



Fevralın 27-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə qoşunların təmas xəttindəki hazırkı vəziyyətinə, keçirilən monitorinqlərin nəticələrinə və münaqişənin həllinə dair fikir mübadiləsi aparılıb.

# Azərbaycan Respublikasının Müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Suriyanın İdlib şəhərində Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçularının şəhid olması və yaralanması ilə əlaqədar Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab Hulusi Akara və Baş Qərargah rəisi ordu generalı Yaşar Gülerə başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Suriyanın İdlib şəhərində, xaincəsinə edilmiş hücum nəticəsində, qardaş Türkiyə Silahlı Qüvvələrinin onlarla hərbi qulluqçusunun şəhid olması və yaralanması haqqında məlumatlar məni dərindən kədərləndirir.

Həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verir və Allahdan səbr diləyirik. Ruhları şad, xatirələri əziz olsun. Bütün yaralılara Tanrıdan şəfa diləyirəm. Sizin acınız bizim də acımızdır.

Türkiyə Silahlı Qüvvələri tərəfindən həyata keçirilən terrorla mücadilə əməliyyatının müvəffəqiyyətlə başa çatmasına əminliyimi ifadə edir və uğur arzulayıram.

Allah rəhmət eləsin".

# Azərbaycanın hərbi nümayəndə heyəti İranda səfərdədir

*Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə İran İslam Respublikasının Müdafiə və Silahlı Qüvvələrə Dəstək Nazirliyinin birgə işçi qrupunun Tehran şəhərində ikinci iclası keçirilib.*

Azərbaycan Respublikası Müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini general-leytenant Fuad Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti iranlı həmkarları ilə hərbi-texniki əməkdaşlığın hazırkı vəziyyətini və perspektivlərini müzakirə ediblər.



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşün sonunda birgə işçi qrupun iclasının yekun protokolu imzalanıb.

# "Dəniz Kuboku" müsabiqəsinin planlaşdırılması üzrə işçi görüşü keçirilib

*Fevralın 26-da Hərbi Dəniz Qüvvələrinin qərargahında "Beynəlxalq Ordu Oyunları-2020" yarışları çərçivəsində Azərbaycanın ərazi sularında keçiriləcək "Dəniz Kuboku" müsabiqəsinin yüksək səviyyədə təşkili məqsədi ilə iştirakçı ölkə orduları nümayəndələrinin işçi görüşü keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan, Rusiya və İran nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə müsabiqənin əhəmiyyəti vurğulanıb, hazırlıqla bağlı planlaşdırılan məsələlər və görüləcək işlər müzakirə edilib.

Sonda yekun protokol imzalanıb.



# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**27 fevral 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Ayqeovit kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Fərəhli, Quşçu Ayrım, Aşağı Əskipara, Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Cəbrayıl rayonunun işğal altında olan Mehdili kəndi yaxınlığında, həmçinin Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

**28 fevral 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Paravakar kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Cəfərli, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd kəndləri yaxınlığında, həmçinin Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımı ilə bağlı bəyanat yayıb

*İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Yusif bin Əhməd əl-Useymin 1992-ci il fevralın 26-da Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Xocalı şəhərində törədilmiş soyqırımının 28-ci ildönümü ilə əlaqədar bəyanat yayıb. Baş katib faciə zamanı həlak olmuş insanların xatirəsini ehtiramla yad edib.*

AZƏRTAC xəbər verir ki, bəyanatda Xocalı qırğınının Ermənistanın Azərbaycan torpaqlarını qeyri-qanuni işğal etməsi nəticəsində baş verdiyi bildirilir. Qeyd edilir ki, Baş katib işğal olunmuş Azərbaycan ərazilərində mülki azərbaycanlı əhaliyə qarşı törədilmiş hərəkətləri müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər və soyqırımı kimi dəyərləndirən, 2013-cü ildə Qahirədə keçirilmiş İslam Sammitinin 12-ci sessiyasının Yekun Kommünikesinə, o cümlədən İƏT Xarici İşlər Nazirləri Şurasının 2019-cu ildə Əbu-Dabidə keçirilmiş 46-cı sessiyasında qəbul edilmiş qətnamələrə istinad edib.

Baş katib bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin qəbul edilmiş beynəlxalq hüququn norma və prinsiplərinə, habelə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında ən qısa müddətdə siyasi həllinə çağıran İƏT Xarici İşlər Nazirləri Şurasının qətnamələrini bir daha xatırladıb.

# XX əsrin faciəsi - Xocalı soyqırımı

*Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər həyata keçirilib. Anım mərasimlərində əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın azadlığı uğrunda şəhid olanların, eləcə də Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirlərdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, eləcə də Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin, rayon incəsənət nümayəndələrinin və məktəblilərin hazırladıqları ədəbi-bədii kompozisiyalar, fotosərgilər, videoçarxlar nümayiş etdirilib. Şəxsi heyət tərəfindən Bakı və digər şəhərlərdə "Xocalı soyqırımı" abidələri ziyarət olunub, ictimai-siyasi hazırlıq dərslərində mövzuya dair mühazirələr oxunub və faciənin şahidləri ilə görüşlər keçirilib.*






Naxçıvan Qarnizonu qoşunlarında Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş silsilə tədbirlər keçirilib.

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən tədbirdə bildirilib ki, Xocalıda xalqımızın mərd övladlarının Vətən uğrunda ölümün gözünə dik baxaraq göstərdikləri rəşadətin hər biri qəhrəmanlıq salnaməsidir. İnsanlığın sınağa çəkildiyi bir vaxtda Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda gözünü qırpmadan canından keçmək Azərbaycan xalqının əyilməzliyinin təcəssümüdür.

Vurğulanıb ki, məhz ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Xocalı soyqırımına ilk dəfə hüquqi-siyasi qiymət verilib. “Bu siyasətin uğurla davam etdirilməsinin nəticəsidir ki, bir çox ölkələrdə və şəhərlərdə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq təbliğat kampaniyası Xocalı faciəsinin dünyada soyqırımı aktı kimi tanınmasında mühüm rol oynayır. Gün gələcək, Lələtəpə, Cocuq Mərcanlı, Günnüt, Qızılqaya zəfərinin sədaları bütün qədim Azərbaycan torpaqlarından, Azərbaycan əsgərinin addım səslərini eşitmək həsrətində olan yurd yerlərimizdən gələcək. İşğal altındakı torpaqlarımız tezliklə öz əzəli sahiblərinə qaytarılacaq və tarixi ədalət bərpa olunacaq”.

Tədbirdə Heydər Əliyev adına Hərbi Liseyin kursantları, Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri və Nərgiz uşaq bağçasının fidanları Xocalıya həsr olunmuş səhnəcikləri canlandırıb, şeirləri bədii qiraət edib və ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

* * *

Hərbi Dəniz Qüvvələrində Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar keçirilən tədbirdə "N" hərbi hissəsinin şəxsi heyəti, "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin üzvləri, ictimaiyyət nümayəndələri və məktəblilər iştirak ediblər.

Xalqımıza qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı, təcavüzkarlıq siyasəti, SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda törədilən qırğının acı nəticələri, faciə nəticəsində xalqımıza vurulan maddi və mənəvi zərərlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib. Ermənilərin 28 il əvvəl Xocalıda törətdikləri qətliam, amansızlıq və vəhşiliyin təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş ən dəhşətli vandalizm aktı olduğu bir daha vurğulanıb.

* * *




"N" hərbi hissəsində keçirilən tədbirdə polkovnik Siyavuş Mustafayev Xocalı soyqırımı haqqında məlumat verərək deyib: “Ağdam-Şuşa yolu üzərində Əsgəranla Xankəndi arasında mühüm strateji əhəmiyyətli ərazidə yerləşən Xocalı, strateji mövqeyinə görə müharibədə həlledici rol oynaya biləcək bir şəhər idi. Qarabağda yeganə aeroport Xocalıdaydı. Buna görə də ermənilərin Xocalı ilə bağlı xüsusi niyyətləri var idi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni faşistləri Xocalını vəhşiliklə yerlə-yeksan etdilər. Bu hücum zamanı əhali çaşqınlıq içində meşələrə, dağlara üz tutdu. Qarlı meşələrdə, dağlarda yüzlərlə xocalılı xüsusi qəddarlıqla qətlə yetirildi. Ermənilər südəmər körpələrə, əlsiz-ayaqsız qocalara, qadınlara belə aman vermədilər."

Çıxış edənlər Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad edərək vurğulayıblar ki, Xocalı faciəsi sadəcə bir gecənin faciəsi deyil. “Xalqımıza qarşı yönəldilmiş genosid siyasətinin bir mərhələsi olub. Ali Baş Komandan İlham Əliyevin döyüş əmriylə torpaqlarımızı işğaldan azad edəcəyimiz gün soyqırımı qurbanlarının ruhu qarşısında mənəvi borcumuzu yerinə yetirəcəyik”.

* * *

Sabunçu rayonu Maştağa qəsəbəsinin Savalan yaşayış massivində yerləşən 28 nömrəli tam orta məktəbdə keçirilən tədbirdə Müdafiə Nazirliyinin və Sərhəd Qoşunlarının əməkdaşları, məktəbin müəllim və şagird kollektivləri, valideynlər, ziyalılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Məktəbin direktoru Əməkdar müəllim Qənirə Əmircanova Xocalı soyqırımını ən dəhşətli və faciəli tarix adlandıraraq deyib: "Bu amansız və qəddar soyqırımı insanlıq tarixində ən qorxulu kütləvi terror aktlarından biridir. Fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələrinin Xocalıya hücumu nəticəsində 613 nəfər öldürülüb, müxtəlif yaşda dinc sakin aldığı güllə yarasından əlil olub. 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 132 uşaq valideynlərindən birini itirib. Bu, Azərbaycan xalqına qarşı törədilən ilk vəhşilik deyildi. Bunlardan biri də 1918-ci il martın 31-də tariximizə Azərbaycanlıların soyqırımı kimi daxil olub. Bu vəhşilikləri özümüz də unutmuruq, şagirdlərimiz də unutmur. Bu tarix heç zaman unudulmayacaq."

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşı, "Əsgərə məktub" layihəsinin rəhbəri Səbinə Cəbiyeva çıxış edərək deyib ki, layihənin əsas məqsədi ön xətdə xidmət edən əsgərlərimizi daima diqqət mərkəzində saxlamaqdır, bu, hər birimizin vətəndaşlıq borcudur. Xocalı faciəsi hər bir azərbaycanlının yaddaşında yaşadılır.

Tədbirin sonunda "Əsgərə məktub" layihəsi çərçivəsində şagirdlər ön xətdə xidmət edən əsgərlərə məktub yazıblar, əsgərlərin şagirdlərə ünvanladığı məktublar məktəblilərə çatdırılıb.

* * *

Azərbaycan Hərb Tarixi Muzeyində keçirilən tədbirdə muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə qeyd edib ki, tariximizin ən faciəli səhifələrindən biri olan Xocalı soyqırımı xalqımızın qan yaddaşına ağrı-acılarla həkk olunub. "Ermənilər rus ordusunun dislokasiya yeri Xankəndi olan 366-cı alayının bilavasitə iştirakı ilə dəhşətli qırğın, bəşəriyyətə qarşı ağır cinayət hesab edilən soyqırımı törətdilər. Xocalını mühasirəyə alıb insanları qırdılar, şəhəri yer üzündən sildilər. Ən faciəvi və qanlı hadisə olan Xocalı soyqırımından 28 il keçir. Bu soyqırımı törədənlər hələ də layiqli cəzalarını almayıblar".

Xocalının məhv edilməsində bilavasitə iştirak etmiş 366-cı alayın tabor komandiri olmuş Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyan, Yevgeni Nabokix, taborun qərargah rəisi Valeri Citciyan və başqaları amansız qırğının törədilməsində bilavasitə iştirak ediblər və hələ də onların hüquqi cavabları verilməyib. Şəhər əhalisinin sağ qalanları meşələrə qaçmağa məcbur olublar. Şaxtalı havada taqətdən düşmüş insanların çox hissəsi meşədə ermənilər tərəfindən xüsusi qəddarlıqla öldürülüblər."

Tədbirdə digər çıxış edənlər də Xocalı soyqırımını təkcə Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı bir hücum olduğunu vurğulayıblar.

Tədbirin sonunda Müdafiə Nazirliyi Sənədli və Tədris Filmləri Mərkəzinin hazırladığı sənədli film təqdim olunub.

* * *

Sevincim də olub, qəhərim də.

Ürəyim sevincimə də darlıq edib, qəhərimə də.

Sevincimi ailəmlə, ruhuma yaxın adamlarla bölüşmüşəm, qəhərimi hamıdan gizlətmişəm. Fərdi sevinc də belə yaşanılır, fərdi qəhər də. Ümumxalq sevinci, ümumxalq qəhəri belə yaşanılmır...

Neçə illərdi Xocalı faciəsinin ağrıları hamının ürək göynərtisidi - ovunmur, torpaqlarımız işğaldan azad edilənəcən ovunmayacaq. 1992-ci ilin 25 fevral gecəsi bəşəriliyə xəyanətdi, şaxtada, sazaqda rus ordusuna məxsus 366-cı alayın iştirakıyla Xocalıya soxulan ermənilərin qəddarlıq - ermənilik gecəsidi; ana qucağında donan körpənin son nəfəsinin ermənilərin yaxınlaşdığını görəndə əvvəl qızını, sonra özünü güllələyən atanın qoşalülənin tətiyində donan barmağının harayıyam, çöldə, meşəlikdə, yolda donan qocaların harayıyam, 63 uşağın harayıyam, 70 qocanın harayıyam, hər iki valideynini itirən 25 uşağın, valideynlərindən birini itirən 132 uşağın harayıyam, tamamilə məhv edilən 8 ailənin harayıyam...

Gəlirlər, dayanırlar, baxırlar, çoxunun yanağında yaş yandırır...

Yaşlı bir qadının yerişini ləngidən 7-8 yaşlı uşağın dedikləri ətrafdakıların hamısının diqqətini çəkir: o ana da, qucağındakı uşaq da ondamı donub, ay nənə?

Nənə nə deyəydi?..

Uşağın sorğusu "Ana harayı"nın harayına qarışır.

"Ana harayı" da, o uşağın harayı da, o harayları eşidənlərin harayı da "Xocalıya ədalət!", - deyir. Dünya "Xocalıya ədalət!" - harayını eşidəcək. Mütləq eşidəcək!..

**"Azərbaycan Ordusu"**

# Yeni Xocavənd qəsəbəsində şəhidlərin xatirəsi silsilə tədbirlərlə yad edilib

*2017-ci il fevralın 24-dən 25-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bütün cəbhəboyu törətdiyi irimiqyaslı təxribatların qarşısını alarkən şəhid olmuş Azərbaycan Ordusunun hərbi qulluqçuları Abdullayev Aqşin İsmayıl oğlu, Nəzərov Şahlar Yaşar oğlu, Haşımlı Tural Əbdül oğlu, Qədimov Zülfü Rəhim oğlu və Cəfərov Zakir Nazim oğlunun xatirəsi cəbhəyanı bölgədə - Yeni Xocavənd qəsəbəsində ehtiramla yad edilib.*



Müdafiə Nazirliyinin rəsmilərinin, Xocavənd rayon İcra Hakimiyyəti rəhbərliyinin, bölgənin müdafiəsində dayanan hərbi hissə komandanlığının, paytaxt Bakıdan və respublikanın müxtəlif şəhər və rayonlarından gələn şəhid ailələri üzvlərinin, müharibə veteranları və əlillərin, ictimaiyyət nümayəndələrinin, hərbi qulluqçuların, məktəbli və gənclərin iştirak etdiyi tədbirlər şəhidlərin xatirəsinə böyük ehtiram olmaqla yanaşı, həm də ordu ilə xalqın sağlam mənəvi birliyinin nümayişinə çevrilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi ziyarət olunub, qarşısına güllər düzülüb. Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların adlarının əbədiləşdirilməsi, dünyanın gözü qarşısında baş verən Xocalı soyqırımının - bütün bəşəriyyətə qarşı törədilmiş tarixi bir cinayətin əsl mahiyyətinin dünyaya çatdırılmasında, beynəlxalq ictimaiyyətin geniş məlumatlandırılmasında, bu soyqırımı törədənlərin ifşa olunmasında Ulu Öndərin böyük xidmətləri qeyd edilib. Unudulmaz lider Heydər Əliyevin "Xocalı faciəsi 200 ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir" fikri xatırlanıb.



Qeyd olunub ki, Xocalı həqiqətlərinin dünyaya çatdırılması istiqamətində bu gün də ölkəmizdə və Vətənimizin hüdudlarından uzaqlarda da davamlı olaraq məqsədyönlü tədbirlər həyata keçirilir.

Nəzərə çatdırılıb ki, hələ Xocalı soyqırımı törədilən qanlı gecədən öncə xocavəndlilər erməni quldurlarının törətdikləri vəhşiliklərin ağrıacılarını yaşamışlar. 1992-ci il fevralın 17-dən başlanan Qaradağlı soyqırımı zamanı kəndin on sakinindən biri şəhid olmuş, 104 kənd sakini və 15 nəfər xüsusi müdafiə dəstəsinin üzvü əsir götürülmüş, onlardan 80 nəfəri erməni cinayətkarları tərəfindən amansız əziyyətlər verilərək qətlə yetirilmişlər. Heç kim və heç nə yaddan çıxmır, unudulmur.

2017-ci ilin yanvarında Xocavənd istiqamətində 5 nəfər hərbi qulluqçunun həlak olması da məhz Qaradağlı, Xocalı soyqırımlarını törədənlərin məkrli, hiyləgər və işğalçılıq siyasətinin davamıdır.

Sələkətin kənd tam orta məktəbində (Sələkətin Azərbaycanın ən qədim kəndlərindəndir. Dünyanın ən qədim yaşayış məskənlərindən biri olan Azıx mağarası bu kənddədir. Kənd 28 il öncə işğal edilib, kənd məktəbi də qaçqınlıq həyatını yaşamağa məcbur olub) "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarı altında keçirilən tədbirdə şəhidlərin adları verilmiş sinif otaqlarında vətənpərvərlik dərsləri keçirilib, üç il öncə şəhid olan hər bir şəhidə həsr edilən xatirə guşələrinə baxış olub, məktəblilər həmin şəhidlərin ailə üzvləri ilə görüşüb, müəllimlərin, şagirdlərin çıxışları dinlənilib.

Cəbhəboyu zonada gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində görülən işlər yüksək qiymətləndirilib. Bütün bu işlərin təşkilində hərbçilərin köməyi xüsusilə vurğulanıb.

Kuropatkino kənd uşaq bağçasının hərbi libas geyinmiş balaca sakinlərinin təqdim etdiyi "Atamız şəhid oldu, biz atasız qalmadıq. Vətən, dövlət, bir də xalq bizə atadır, ata!" adlı ədəbi kompozisiya tədbir iştirakçılarına həm kədərli, həm də qürurlu anlar yaşadıb.

Xocavəndlilərin və hərbi qulluqçuların birgə yaratdıqları "Xatirə parkı"nda keçirilən mərasimi Müdafiə Nazirliyinin zabiti, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani açaraq deyib: "Vətən uğrunda həlak olmaq əbədi həyat qazandırır. Qədirbilən xalqımız torpaq uğrunda həlak olanları, şəhidlik zirvəsinə ucalanları heç vaxt unutmur. Onların adları xatirələrdə, ürəklərdə, şeirlərdə, nəğmələrdə və bir də yeni-yeni ünvanlarda əbədiləşdirilir, onlar cismən həyatda olmasalar da, əməlləri, qəhrəmanlıqları yaşayır, nəsillərə örnək olur, valideynləri, doğmaları, eləcə də bütün xalqımız, döyüş dostları onlarla fəxr edirlər. Üç il öncə şəhid olmuş hərbi qulluqçular Aqşin Abdullayev, Şahlar Nəzərov, Tural Haşımlı, Zülfü Qədimov və Zakir Cəfərov da belə unudulmaz oğullarımızdandırlar. Onlar Azərbaycan Respublikasının Prezidenti adından, Müdafiə nazirinin əmri ilə yeni təsis edilmiş "Şücaətə görə" medalı ilə təltif olunmuş ilk döyüşçülərimizdəndirlər. Bu gün isə Yeni Xocavənd qəsəbəsində istifadəyə verilən "Xatirə parkı"nda onların adları əbədiləşdirilərək gənc nəslə qəhrəmanlıq, şəhidlik yolunu göstərən məşələ çevrilirlər".

Hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub, parkın açılışı elan edilib. Aprel döyüşləri zamanı Lələtəpəyə bayraq sancan igid döyüşçü Asim Əliyev alqışlar altında parkın girəcəyində üzərində "Qarabağ Azərbaycandır!" sözləri yazılmış, Azərbaycan xəritəsi təsvir edilmiş yaşıl təpənin zirvəsində Azərbaycan bayrağını qaldırıb.

Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov qonaqları salamlayıb. Xocavəndlilərin Qarabağ müharibəsi başlanan ilk gündən düşmən təcavüzünə qarşı vuruşduqlarını, Xocavənd könüllülərinin son nəfəsə, son gülləyə qədər mübarizə apardıqlarını və bu gün də hər bir xocavəndlinin ordumuza dayaq, döyüşə hazır olduğunu bildirib.



İcra başçısı 10 aprel 1994-cü il tarixində ulu öndər Heydər Əliyevlə xocavəndli döyüşçülərlə Nərgiztəpə istiqamətində ön səngərdə görüşdüyü tarixi anları yada salıb və həmin səngərin bu gün müqəddəs bir məkan kimi qorunduğunu, həmin səngərdə mətin Azərbaycan əsgərinin ayıqsayıq, məğrur dayandığını qeyd edib.

General-mayor Mayis Bərxudarov əsası Ümummilli Liderimiz tərəfindən qoyulan müasir Azərbaycan Ordusunun bu gün dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında daha da qüdrətləndiyini, dünyanın ən güclü ordularından birinə çevrildiyini nəzərə çatdırıb. Bütün xalqımız kimi, Azərbaycan Ordusunun şəxsi heyətinin də ölkə rəhbərliyinin apardığı daxili və xarici siyasəti dəstəklədiyini, Azərbaycan Ordusunun zəfər yürüşü ilə tezliklə işğal altında olan digər torpaqlarımızın da azad ediləcəyinə əminliyini bildirib.

General şəhidlərin anım günündə dəvətlərini qəbul edərək Bakıdan, Naxçıvandan, Şəkidən, Yardımlıdan və digər bölgələrdən tədbirə gələn şəhid ailələrinin üzvlərinə minnətdarlığını bildirib.

"Şəhidlər bizimlə bir sıradadırlar. Onlar ölməyiblər. Biz hər bir qələbəmizi, hər bir uğurumuzu unudulmaz şəhidlərimizin əziz xatirəsinə həsr edirik. Onların bir arzusu var idi: "Lələtəpə uğrunda döyüşlərdə olduğu kimi, qələbə bayrağımızı Şuşada, Xankəndidə, Xocalıda, Laçında, Qubadlıda və işğal altında olan digər tarixi və əzəli torpaqlarımızda dalğalandırmaq!". Şəhidlərimizin bu arzusunu qətiyyətli Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan əsgəri gec-tez gerçəkləşdirəcək və respublikamızın ərazi bütövlüyü təmin olunacaqdır", - general-mayor M.Bərxudarov deyib.

Şəhid anaları adından çıxış edən Dursun Abdullayeva nəvələri Amin və Nərminlə birlikdə Şəki şəhərindən gəldiklərini, oğluna və bütün şəhidlərə göstərilən bu diqqəti, ehtiramı görüb ürəyinin dağa döndüyünü, ailələrinin heç vaxt unudulmadığını bildirib. Dövlətimizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə, bugünkü silsilə tədbirlərin təşkilatçılarına şəhid ailələri adından minnətdarlıq edib.

Xocavənd məktəblilərinin təqdim etdikləri ədəbi-musiqili kompozisiya maraqla qarşılanıb.

Sonra tədbir iştirakçıları "Xatirə parkı" ilə tanış olub, şəhidlərin xatirə lövhəsi qarşısına qərənfillər düzüb, "Şəhidlər bulağı"ndan su içib, ağacəkmə aksiyasına qoşulub, birlikdə xatirə şəkilləri çəkdiriblər.

Yeni Xocavənddə keçirilən silsilə tədbirlərdən sonra qonaqlar hərbi hissədə əsgərlərlə birlikdə nahar ediblər.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**
**1. XVI əsrin başlanğıcında Azərbaycan ərazisinin tarixi coğrafiyası, ölkədaxili siyasi-iqtisadi vəziyyət, dövlət quruluşu və hərbi qüvvələr.**
**2. Səfəvilər sülaləsi, Azərbaycan Səfəvilər dövlətinin yaranması.**
**3. Səfəvilər dövləti və Osmanlı Türkiyəsi arasında münasibətlər.**

**Mövzu:** Azərbaycan orta əsrlərdə. Azərbaycan Səfəvilər dövləti.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan tarixinə dair müvafiq ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

*XVI əsrin başlanğıcında Azərbaycan ərazisinin tarixi coğrafiyası, ölkədaxili siyasi-iqtisadi vəziyyət, dövlət quruluşu və hərbi qüvvələr*

XV əsrin sonları XVI əsrin başlanğıcına doğru Azərbaycanda bir sıra müstəqil feodal dövlətləri yaranmışdı ki, onlardan ən mühümü Şirvanşahlar, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri idi. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ərazisi Cənubi Azərbaycanı və Qarabağı, şimalda Kür çayına qədər Gəncə və Şəmkiri əhatə edirdi. Hər üç dövlətin quruluşu eyni olub, birbirindən əsaslı şəkildə fərqlənmirdi. Fərq yalnız onda idi ki, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri aparatında Azərbaycan tayfalarının hərbi-feodal əyanları - baharlı və bayandırlı tayfaları əsas rol oynayırdılar. Hər iki sülalənin dövlət başçıları "padşah" titulu daşıyırdılar. Şirvanda isə dövlət hakimiyyəti feodal əyanlarına mənsub idi. Şirvan dövlətinin başçıları özlərini "şah" adlandırırdılar.

Hakim sülalənin üzvlərindən və ya məşhur əmirlərindən təyin olunan ordunun baş komandanı Əmir-ül Üməra (əmirlər əmiri) titulunu daşıyır, padşahdan sonra birinci şəxs sayılırdı. Hərbi qüvvələr padşahın xüsusi və vilayət canişini qoşunlarından ibarət idi. Hər ikisi Azərbaycanın feodal qoşun hissəsini təşkil edirdi. Komanda heyəti feodal əyanlarından seçilirdi. Orduda ali rütbəli şəxs əmir adlanırdı. Vilayətlərdə əmirlərin sırasından böyük əmirlər ayrılırdı. Bunların da ordunun rəhbər heyətində xüsusi yeri vardı. Kiçik rəislər qibtaul adlanırdılar. Ordunun sıravi tərkibi zireh geymiş süvarilərdən - puşandarlardan, tirkətbən-oxatanlardan, xidmətçilərdən ibarət idi. Komanda heyəti dəmir geyimlə yanaşı, zərif ipək paltar da geyirdi. Ağqoyunlu əsgərləri başlarına şiş papaq qoyardılar. Qoşunun tərkibi müxtəlif idi: burada çəkməçi, tacir, tibb işçisi və s. peşə sahibləri vardı.

Feodal pərakəndəliyi ölkənin ayrı-ayrı hissələri arasında təsərrüfat əlaqələrinin möhkəmlənməsinə mane olur və məhsuldar qüvvələrin inkişafını ləngidirdi. Ağqoyunlu şahzadələri arasında ara müharibələri, feodal hakimlərin özbaşınalığının artması kənd təsərrüfatı və sənətkarlığın tənəzzülünə səbəb oldu, şəhər və kənd əməkçilərinin vəziyyətini ağırlaşdırdı. Feodal pərakəndəliyi, həmçinin yadellilərə qarşı mübarizədə xalqın birliyinin yaranmasına mane olurdu. Odur ki, Azərbaycanı siyasi cəhətdən birləşdirmək zərurəti artıq meydana çıxmışdı. Bu birləşmə Azərbaycan əhalisinin geniş kütlələrinin mənafeyinə uyğun gəlirdi. Yalnız belə bir dövlət yaratmaqla feodal pərakəndəliyini aradan qaldırıb Azərbaycanın müstəqilliyini qorumaq olardı. Bu vəzifəni isə XIII yüzilliyin sonunda Azərbaycanın Ərdəbil şəhərində yaşamış Səfəvilər sülaləsi hakimiyyəti ələ keçirməyə başladı.

*Səfəvilər sülaləsi, Azərbaycan Səfəvilər dövlətinin yaranması*

Azərbaycan dövlətçiliyi tarixində Səfəvilər dövlətinin özünəməxsus yeri vardır. Səfəvilər sülaləsinin daxilində tarixi mübarizə Şeyx Səfiəddindən sonra sülalənin görkəmli başçıları, o cümlədən Şah İsmayılın (1487-1524) dövründə kəskin xarakter aldı. Beləliklə, Səfəvilərin Ərdəbil hakimliyindən sonrakı dövrünü onların Azərbaycanın siyasi həyatında mühüm rol oynaması, bütün Azərbaycanda hakimiyyətin yaranması və möhkəmlənməsi dövrü kimi qiymətləndirmək olardı. Məhz Səfəvilərin Ərdəbil hakimiyyəti mərkəzləşmiş Azərbaycan dövlətinin yaradılması yolunda başlanğıc rolunu oynamışdır. XV əsrin ortalarından etibarən Səfəvilər daha fəal siyasət yeritməyə başladılar. Onlar uğurlu hərbi yürüşlər keçirərək böyük qənimətlər əldə edir və öz mövqelərini möhkəmləndirirdilər. Əsrin II yarısında artıq Muğanın bir hissəsi, Qarabağ və Azərbaycanın Talış dağlarına qədər olan şərq torpaqları onların təsiri altına düşmüşdü. Həm də Səfəvilərin ayrı-ayrı nümayəndələri tarix səhnəsində daha ruhani başçısı kimi yox, siyasi xadim kimi çıxış edirdilər.

Səfəvilərin hakimiyyəti Şah İsmayılın dövründə daha da gücləndi. Onlar kütlələri öz tərəflərinə cəlb etmək üçün ədalətli qərarlar vəd edirdilər. Təkcə Ərzincan səfəri ərzində İsmayılın bayrağı altına müxtəlif tayfalardan 7 min qazi toplaşdı. Bu müşavirədə Səfəvilər birinci zərbəni Şirvanşahlara vurmaq qərarına gəldilər. Çünki əks halda, yəni, Təbrizə hücum etməklə dərhal üç düşmənlə - Ağqoyunlu Əlvənd Mirzə və Muradla, habelə onları müdafiə edən Şirvanşah Fərrux Yasarla üzləşməli olardılar. Beləliklə, 1500-cü ilin payızında qızılbaşlar (Səfəvilər) Kürü keçib Şirvan ərazisinə daxil oldular. Şirvanın paytaxtı tutuldu, Fərrux Yasarın başı kəsildi, qızılbaşlar Şirvanşahların böyük sərvətini ələ keçirdilər. Sonra İsmayıl Bakı üzərinə yeriyərək onu ələ keçirdi. Ağqoyunlu Əlvənd Mirzə bundan bərk narahat oldu. O, İsmayılın cənuba doğru hərəkətinə nə qədər mane olmağa çalışsa da, buna müyəssər olmadı. 1501-ci ilin ortalarında Naxçıvan ərazisində onlar arasında həlledici döyüş baş verdi. Bu döyüşdə İsmayıl əsl sərkərdəlik məharəti göstərərək qələbə qazandı.

Həmin qələbədən sonra, 1501-ci ilin payızında İsmayıl təntənə ilə Təbrizə daxil oldu və özünü şah elan etdi. Beləliklə, paytaxt Təbriz olmaqla Səfəvilər dövlətinin əsası qoyuldu. Azərbaycan Səfəvilər dövlətinin özəyi idi. Bu dövlətdə əhalinin etnik və mədəni birliyə malik çoxluğunu Azərbaycan türkləri təşkil edirdilər. Azərbaycan etnik ünsürü dövlətin siyasi həyatında rəhbər rol oynayırdı. XVI əsrin ortalarına yaxın dövlətin 74 əmirindən 69-u Azərbaycan türkü idi. Ordu da əsasən Azərbaycan tayfalarından təşkil olunurdu. Şahın sarayında, qoşun içərisində və qismən diplomatik yazışmalarda Azərbaycan türkcəsindən istifadə olunurdu.

Səfəvilər dövlətinin yaranması Azərbaycan tarixində mühüm hadisə idi. Bu ölkənin təsərrüfat həyatı üçün şərait yaratdı, yadellilərə qarşı xalqın mübarizəsini asanlaşdırdı.

Şah İsmayılın qələbələri çoxlarını narahat edirdi. Bəzi feodallar, hakimlər siyasi həyatda müstəqillik və hakimiyyət iddiası ilə çıxış edirdilər. Səfəvilər dövləti üçün təhlükəli düşmən Murad padşah Həmədanda qoşun qalıqlarını toplayaraq qızılbaşlara zərbə endirməyə çalışırdı. Belə olduqda İsmayıl 12 min nəfərlik qoşunla Təbrizdən çıxaraq, Qızılüzən çayını keçib Həmədan yaxınlığına gəldi. 1503-cü il iyunun 21-də baş verən döyüş nəticəsində Muradın qoşunları məğlubiyyətə uğradı. Murad Şiraza qaçdı. İsmayıl onu təqib edərək İranın içərilərinə doğru irəlilədi və müqavimətsiz Şirazı ələ keçirdi. Beləliklə, Ağqoyunlu dövlətinin varlığına son qoyuldu. İsmayıl Əlvənd üzərində qələbə ilə İran və Əcəm İraqının xeyli hissəsinə yiyələndi.

*Səfəvilər dövləti və Osmanlı Türkiyəsi arasında münasibətlər*

Səfəvilər dövlətinin meydana çıxması və onun qüdrətinin artması Osmanlı Türkiyəsini narahat edirdi. Osmanlı İmperiyası Səfəvilərin düşməni olan Ağqoyunlu padşahına kömək edir, yeni dövlətin möhkəmlənməsinə mane olmağa çalışırdı. Lakin Türkiyə sultanı II Bəyazit Şah İsmayıla qarşı müharibəyə başlamağa cəsarət etməyərək, 1504-cü ildə bu dövləti tanımağa məcbur oldu. Bununla belə, Osmanlı feodalları Azərbaycanı və qonşu ölkələri ələ keçirmək iddialarından əl çəkmirdilər. Səfəvilər isə Gürcüstanı və Türkiyənin bir sıra şərq torpaqlarını özlərinə tabe etmək niyyətində idilər.

Şah İsmayılın ölümündən sonra onun oğlu I Təhmasib taxta çıxdı (1524-1576).

Süleyman Qanuninin (1520-1566) vaxtında Osmanlı ali təbəqəsi öz nüfuz dairələrini şərq istiqamətində genişləndirmək cəhdlərindən əl çəkmirdi. Odur ki, qarşılıqlı hücumlar ara vermir, illərlə davam edirdi. Nəhayət, 1555-ci il mayın 29-da Amasiyada Səfəvi-Osmanlı müharibəsinin birinci mərhələsini başa çatdıran sülh müqaviləsi imzalandı. Bu sülhə görə, Qərbi Gürcüstan - İmeretiya, Menqreliya və Quriya Türkiyənin, Gürcüstanın şərq vilayətləri - Mesxi, Kartlı, Kaxetiya və indiki Ermənistan Səfəvilərin ixtiyarına keçdi. Lakin bu sülh uzun sürmədi. XVI əsrin 70-ci illərindən etibarən Osmanlı işğalının yeni dövrü başlandı. Bu vaxt Səfəvilər dövlətinin başında Məhəmməd Xudabəndə (1578-1587), Osmanlı dövlətinin başında isə Sultan II Murad (1574-1595) dururdu.

Beləliklə, 1586-1589-cu illərdə bütün Azərbaycan Sultan II Muradın ordusu tərəfindən zəbt olundu. Səfəvilər ərazilərinin qalan hissəsini itirməmək üçün sülhə razılaşdılar. 1590-cı ildə imzalanan İstanbul sülh müqaviləsinə görə, Azərbaycandan əlavə indiki Ermənistan, Gürcüstan, habelə İranın qərb vilayətləri Türkiyəyə verildi. Səfəvilər dövləti tezliklə süquta uğradı.

Osmanlı ilə müharibənin davam etdiyi illərdə İranda hakimiyyət dəyişikliyi oldu. I Şah Abbas taxt-taca sahib oldu (1587-1629). O da Azərbaycana qarşı planlarını gizlətmirdi. 1607-ci ildən etibarən hərbi əməliyyatlara başlayan I Şah Abbas Şirvana hücum etdi. O, zəbt etdiyi ərazilərdə güclü farslaşdırma siyasəti yeridir, amansız bir idarə üsulu yaradırdı.

1639-cu il mayın 17-də Qəsri-Şirində imzalanmış sazişə görə Səfəvi-Osmanlı müharibəsinə son qoyuldu. Ərəb İraqı osmanlılara, Zəncir qalasından şərqdəki torpaqlar Səfəvilərə verildi. Səfəvilər Van və Qars qalalarına, həmçinin Ahalsixa hücum etməyəcəklərinə dair təminat verdilər. Səfəvilər dövlətinin süqutundan sonra Azərbaycan torpaqları parçalandı və ayrı-ayrı ərazilərdə xanlıqlar yaranmağa başladı.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

---

# "Azərbaycan-Türkiyə müttəfiqliyi bölgəmizdə sülh və sabitlik üçün əsaslı zəmin rolunu oynayır"

Azərbaycan-Türkiyə müttəfiqliyi bölgəmizdə sülh və sabitlik, habelə iqtisadi tərəqqi üçün əsaslı zəmin rolunu oynayır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının (TADF) sədri Bilal Dündar bildirib.

İki qardaş ölkə arasında siyasi, iqtisadi, hərbi, ticarət əlaqələrinin olduğunu deyən B.Dündar əlavə edib ki, Prezident İlham Əliyev həmkarı Rəcəb Tayyib Ərdoğanla birgə mətbuata bəyanatla çıxış edərkən də bildirdi ki, Türkiyə dünya miqyasında Azərbaycana ən böyük dəstək verən ölkədir və iki ölkə arasında əlaqələr möhkəm təməllər üzərində qurulub. Federasiya sədri qeyd edib ki, Azərbaycanla Türkiyənin birgə reallaşdırdığı layihələr təkcə iki ölkə üçün deyil, eləcə də region, Avropa ölkələri üçün mühüm əhəmiyyət kəsb edir. Cənub Qaz Dəhlizi və onun tərkib hissəsi olan TANAP, TAP layihələri, eləcə də Bakı-Tbilisi-Qars, Qars-Naxçıvan, Qars-İğdır-Naxçıvan dəmir yolu xətləri və digərləri iki ölkə arasında münasibətləri bir-birinə yaxınlaşdırmaqla yanaşı, həm də Türkiyə və Azərbaycanın daha da güclənməsinə xidmət edir.

Bilal Dündar vurğulayıb ki, ölkələrarasında iqtisadi və diplomatik əlaqələrlə yanaşı, hərbi sahədə də əməkdaşlıq güclənir. Onun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyev həmkarı Rəcəb Tayyib Ərdoğanla görüşündə də bəyan etdi ki, Azərbaycan Türkiyədən müasir silahların alınmasını davam etdirəcək. Həmçinin birgə hərbi təlimlər barədə də danışan dövlət başçısı həmin təlimlərin sayının artırılması ilə yanaşı, birgə istehsalın təşkili haqqında da danışıqların apardığını vurğulayıb. Artıq belə qənaətə gəlmək olar ki, qarşılıqlı intensiv görüşlər nəticə etibarı ilə bu istiqamətdə növbəti yeni zolaq açdı ki, bu da Azərbaycan və Türkiyə hərbi-texniki əməkdaşlığında birgə silah istehsalı faktorunu önə çıxarır.

"Azərbaycan və Türkiyə müxtəlif beynəlxalq təşkilatlarda, o cümlədən BMT, Avropa İttifaqı, ATƏT və Avropa Şurasında bir-birinə lazımi dəstəyi verir. Rəsmi Ankara bütün beynəlxalq toplantılarda Azərbaycanın haqlı mövqeyini müdafiə edərək, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş tarixi torpaqlarından dərhal çıxarılması tələbini irəli sürür. Azərbaycan da bütün beynəlxalq platformalarda Türkiyənin maraqlarından çıxış edərək, hər zaman qardaş ölkənin yanında olduğunu və dəstəklədiyini bəyan edir", - deyə Bilal Dündar qeyd edib.

# Binə qəsəbəsində şəhidin anım mərasimi keçirildi

*Binə qəsəbəsində Xocalı faciəsində şəhid olan Xəqani Aslanovun anım mərasimi keçirildi. Mərasimdə Müdafiə Nazirliyinin, Xəzər və Ağdam rayonları İcra Hakimiyyətinin nümayəndələri, millət vəkili Adil Əliyev, şəhid ailələri, qazilər və şagirdlər iştirak etdilər.*



Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Ermənistanın Azərbaycana qarşı elan olunmadan başladığı müharibədən, müharibənin ağrı-acılarından, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda törətdiyi faciədən danışıldı.

Şəhidin keçdiyi şərəfli döyüş yolu haqqında məlumat verilərək bildirildi ki, ailədə dörd qardaşdan üçü şəhid olub. Qardaşlar Vətəni məhəbbətlə seviblər. Xəqani Aslanov da qardaşları kimi qorxmaz və cəsarətli idi.

Millət vəkili Adil Əliyev çıxışında dedi ki, şəhidlik bir çox dəyərləri özündə cəmləşdirən uca zirvədir. "Azərbaycan naminə şəhid olanlar xalqımıza məxsus olan uca dəyərləri əbədiləşdirirlər. Hər birimiz torpaqlarımızın azadlığı uğrunda döyüşə hazırıq. Şəhidlərin xatirəsini yad etmək hər bir vətəndaş üçün vacibdir. Belə qəhrəman oğulları böyüdən ata-anaların qarşısında baş əyirik."

Ali Baş Komandanımızın şəhidlər haqqında fikirlərinə xüsusi diqqət ayıran millət vəkili Adil Əliyev gənclərimizin şəhidlərimizi daha yaxından tanıması və onları örnək bilməsi üçün daha əhatəli tədbirlər keçiriləcəyinə inandığını dedi. Hər birimizin torpaqlarımızın işğaldan azad olunacağına, şəhidlərimizin ruhunun o zaman təsəlli tapacağına əminliyini bildirdi.



Şəhidin oğlu Cəsarət Aslanov çıxış edərək bildirdi ki, atam Xəqani Aslanov Xocalı faciəsi zamanı Xocalıda dinc sakinlərə kömək edib. "O, müxtəlif yollarla çox sayda insanı mühasirədən çıxararaq, Ağdama aparıb. Bir müddət sonra o, yenidən Xocalıya qayıdaraq mühasirədə olan insanları çıxarmağa çalışıb. Döyüşdə həlak olub." Cəsarət Aslanov tədbir iştirakçılarına və tədbirin təşkilatçılarına minnətdarlığını bildirdi.

Mərasimdə çıxış edənlər Azərbaycanın müstəqilliyi uğrunda şəhid olanların xatirəsinin yad edilməsinin mənəvi borc olduğunu diqqətə çatdırdılar.

**Leytenant**
**Oruc MUSTAFAYEV,**
**"Azərbaycan Ordusu"**

# "Şəxsi heyətin xəstəliklərə yoluxmasının qarşısını almaq məqsədilə ciddi qabaqlayıcı tədbirlər görülür"

*Mövsümi kəskin respirator xəstəliklər, o cümlədən koronavirus infeksiyasının yayılması ehtimalını və hərbi hissələrin şəxsi heyətinin bu kimi xəstəliklərə yoluxmasının qarşısının alınması məqsədilə Azərbaycan Ordusunda ciddi qabaqlayıcı tədbirlər həyata keçirilir.*

Bunu AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev deyib.

N.Əliyev bildirib ki, xəstəliklərin profilaktikası məqsədilə Müdafiə nazirinin əmri ilə hərbi qulluqçuların sağlamlığının qorunub saxlanılması, yoluxucu xəstəliklərə qarşı profilaktik və əks-epidemik tədbirlər görülür. Hazırda bütün hərbi hissələrdə mövsümi xəstəliklərdən qorunma yolları barədə tibbi maarifləndirmə işi və hərbi qulluqçuların gündəlik termometriyası aparılır. Azərbaycan Ordusunda görülən qabaqlayıcı tədbirlər nəticəsində şəxsi heyətin sağlamlığı ilə bağlı bu günədək heç bir narahatlıq qeydə alınmayıb, epidemioloji vəziyyət sabitdir və nəzarət altındadır.

# "Ermənistan silahlılarının Azərbaycanın Xocalı şəhərində törətdikləri qətliam soyqırımıdır"

Azərbaycanın təhlükəsizliyi İranın, İranın təhlükəsizliyi isə Azərbaycanın təhlükəsizliyidir.

Bu sözləri AZƏRTAC-a müsahibəsində İranın Azərbaycandakı keçmiş səfiri Möhsün Pakayin deyib.

O bildirib ki, İran ilə Azərbaycan dost və qardaş dövlətlərdir. Xalqlarımızın eyni milli dəyərlərə, tarixə, mədəniyyətə, adət-ənənəyə və dini dəyərlərə malik olması dövlətlərin yaxın əməkdaşlıq əlaqələrini şərtləndirir. Hər iki ölkənin prezidentinin siyasi iradəsi nəticəsində münasibətlərimiz yüksələn xətlə inkişaf edir. Birgə iqtisadi layihələrin həyata keçirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq onu deməyə əsas verir ki, perspektivdə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri xalqlarımızın mənafeyi naminə daha da inkişaf edəcək.

Keçmiş səfir diqqətə çatdırıb ki, İran Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və suverenliyinə hörmətlə yanaşır. Onun sözlərinə görə, İran Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasına tərəfdardır.

Xocalı soyqırımı haqqında fikirlərini bildirən keçmiş səfir qeyd edib ki, Ermənistan silahlılarının Azərbaycanın Xocalı şəhərində törətdikləri qətliam soyqırımıdır. Beynəlxalq ictimaiyyət Xocalıda törədilənləri soyqırımı kimi tanımalıdır.

# "Azərbaycan ilə Türkiyə arasında hərbi əlaqələr yüksələn xətlə inkişaf edir"

*Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası başa çatdıqdan sonra Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan ilə Türkiyə arasında bir çox sahəni əhatə edən mühüm sənədlərin imzalanması mərasimi keçirilib. Xüsusilə hərbi və hərbi-maliyyə sahəsində əməkdaşlığa dair imzalanan müqavilələr iki ölkə arasındakı hərbi əlaqələrin inkişafına müsbət töhfə verəcək.*



Bunu Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərinin iki ölkə arasında hərbi əlaqələrə müsbət təsiri ilə bağlı AZƏRTAC-a açıqlamasında deyib.

V.Dərgahlı bildirib ki, Azərbaycan ilə Türkiyə arasında ilk hərbi müqavilə 1992-ci ildə imzalanıb. Sonrakı illərdə isə bu sahədə bir çox müqavilə imzalanıb. Türkiyə ilə Azərbaycan arasındakı hərbi əlaqələr bir sıra normativ-hüquqi aktlara söykənir. Bunlar Azərbaycan Ordusunun hərbi qulluqçularının Türkiyədə təhsil alması, birgə hərbi təlimlərin keçirilməsi, texniki və elmi sahədə əməkdaşlıq və Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasının mütəmadi təşkil edilməsidir. İki ölkə arasında Yüksək Səviyyəli Hərbi Dialoq İclası qarşılıqlı şəkildə Azərbaycan və Türkiyədə keçirilir.

Ölkələrimiz arasında imzalanmış müqavilələr hərbi, hərbi-texniki, hərbi təhsil, hərbi tibb və digər sahələrdə əməkdaşlığı əhatə edir. Bu günədək Türkiyədə keçirilən müxtəlif ixtisas kurslarında Azərbaycan Ordusunun 9 minə yaxın nümayəndəsi iştirak edib. 2018-ci il dekabrın 19-da Türkiyə ilə Azərbaycan arasında imzalanan hərbi tibb sahəsində təhsil və əməkdaşlıq müqaviləsinə əsasən hər il ölkəmizdən 100 hərbi qulluqçu ödənişsiz müalicə olunur.

İki ölkə arasındakı hərbi əlaqələrin inkişafına təkan verən ən önəmli amillərdən biri də birgə hərbi təlimlərin keçirilməsidir. Buna misal olaraq, "EFES", "Anadolu Ankası", "Qış Təlimi", "Anadolu Ulduzu", "Erciyes-2019", "Anadolu Qartalı", "Mustafa Kamal Atatürk", "Sarsılmaz Qardaşlıq", "TurAz Qartalı-2019" və bu il keçiriləcək "Heydər Əliyev-2020" təlimlərini göstərmək olar. Azərbaycan ilə Türkiyə arasında keçirilən birgə hərbi təlimlər təkcə Azərbaycan Ordusunun güclənməsinə deyil, eyni zamanda, bölgədə sülhün və təhlükəsizliyin təmin olunmasına yönəlib.

Tərəflər arasında hərbi əməkdaşlığın digər vacib tərəfi müdafiə sənayesi sahəsində əməkdaşlığın genişləndirilməsidir. Bakıda 2018-ci ildə "ADEX-2018" və İstanbulda 2019-cu ildə "İDEF-2019" beynəlxalq müdafiə sənayesi sərgilərinin təşkili hər iki ölkə arasında hərbi-texniki əməkdaşlığın inkişafına təkan verib.

Bundan əlavə, Türkiyə Silahlı Qüvvələri Azərbaycanın NATO ilə əməkdaşlığının inkişafına da öz töhfəsini verir. Belə ki, Azərbaycan sülhməramlıları Türkiyə hərbi kontingentinin tərkibində 1998-2008-ci illərdə Kosovoda (KFOR) və 2002-2014-cü illərdə Əfqanıstanda (İSAF) keçirilmiş əməliyyatlarda, 2015-ci ildən bu günədək isə NATO-nun rəhbərliyi altında keçirilən "Qətiyyətli Dəstək" Missiyasında iştirak edir. Bununla yanaşı, NATO-nun Sülh Naminə Elm Proqramı çərçivəsində Azərbaycan və Türkiyə mütəxəssisləri üçün "Kibertəhlükəsizlik üzrə təkmilləşdirmə" kursları keçirilir.

"Qeyd edək ki, iki ölkə arasında digər sahələrdə olduğu kimi, hərbi sahədə də əlaqələr yüksələn xətlə inkişaf edir. Bunun bariz nümunəsi Azərbaycan Ordusunun 100 illik yubileyi münasibətilə 2018-ci il iyunun 26-da keçirilmiş hərbi paradda Türkiyə Silahlı Qüvvələrinin nümayəndələrinin, həmin il sentyabrın 15-də isə Bakı şəhərinin işğaldan azad olunmasının 100 illiyi ilə əlaqədar ölkəmizin paytaxtında keçirilən paradda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirak etməsidir.

Cari il fevralın 25-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar arasında hərbi-maliyyə əməkdaşlığına dair saziş və maliyyə yardımı haqqında protokol imzalandı. Bu sənədlərə əsasən azərbaycanlı zabit və kursantlar Türkiyənin hərbi təhsil müəssisələrində təhsil ala biləcək və bu ölkədən Azərbaycan Ordusunun döyüş qabiliyyətini artıracaq müasir silah-sursat və hərbi texnika ölkəmizə tədarük olunacaq", - deyə V.Dərgahlı vurğulayıb.

# Ombudsman Aparatının nümayəndələri Silahlı Qüvvələrin Baş Klinik Hospitalında olublar



Ombudsman Aparatının Hərbi qulluqçuların hüquqlarının müdafiəsi sektorunun müdiri Fəzail Həsənov və sektorun baş məsləhətçisi Adil Hacıyev, eləcə də Müdafiə Nazirliyinin nümayəndələri Silahlı Qüvvələrin Baş Klinik Hospitalında olublar.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qonaqlar hospitalın müxtəlif şöbələrində yaradılan şəraitlə yaxından tanış olub, burada müalicə alan hərbi qulluqçuların sağlamlıq durumları, o cümlədən tibbi xidməti və təminatla maraqlanıblar.

Aparat əməkdaşları göstərilən tibbi xidmətin səviyyəsindən və müalicə işinin səmərəli təşkilindən razılıqlarını bildiriblər.



# “Azərbaycan-Türkiyə əlaqələri strateji müttəfiqlik sahəsində ən yaxşı nümunədir”

Azərbaycan və Türkiyə Strateji Əməkdaşlıq Şurasının VIII iclası çərçivəsində imzalanan sazişlər, iki ölkə rəhbərinin bəyanatları çox önəmlidir. Azərbaycanın Türkiyə ilə təhsil, səhiyyə, mədəniyyət sahələrində bir çox ortaq sazişi mövcuddur. Fərqli sahələri əhatə edən mühüm razılaşmalar imzalanıb. Bundan başqa, TANAP və digər irimiqyaslı layihələrdə də Azərbaycan-Türkiyə tərəfdaşlığı əvəzolunmazdır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin (STM) baş məsləhətçisi, politoloq Tural İsmayılov bildirib.

O qeyd edib ki, Azərbaycan hərbi sahədə Türkiyə ilə daim təcrübə mübadiləsi aparır. Ölkələrimiz həm ordu quruculuğu sahəsində, həm də müdafiə sənayesi ilə bağlı önəmli layihələri icra edir, birgə təlimlər keçirirlər. Azərbaycan və Türkiyənin həmrəyliyi, siyasi vahidliyi digər müttəfiq ölkələrə də örnək olmalıdır.

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində növbəti fövqəladə hadisə baş verib.

Ağdərə istiqamətində xidmət edən əsgərlər Karen Rafaelyan və Davtak Sahakyan hərbi hissəni özbaşına tərk ediblər.

Hərbi polis və yerli hüquq-mühafizə orqanları əsgərlərin tapılaraq geri qaytarılması ilə bağlı tədbirlər həyata keçirir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində növbəti rüşvətalma faktı üzə çıxıb.

İşğalçı ordunun Madagiz yaşayış məntəqəmizdə yerləşdirilən bölmələrindən birində xidmət edən əsgər Robert Simonyandan məzuniyyətə göndərilməsi üçün rüşvət tələb olunub.

Hadisə ilə bağlı rəsmi məlumat verilməsə də, əsgərin valideynlərinin prokurorluğa müraciətindən sonra faktla bağlı araşdırmalara başlanılıb.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

*Əsgərə məktub*

# Vətəni qorumaq üçün...

Salam, əsgər qardaşım!

Səni tanımasam da, səninlə qürur duyuram. Sənə belə müraciətə görə rəfiqələrim mənimlə qürurlanacaq.

Sizin hər biriniz hər birinizin əzizisiniz. Siz Vətənimizi qoruyursunuz, Vətənin keşiyini çəkirsiniz. Ürəyinizdə Vətən boyda bir sevgi var. Bu sevginin qüdrətidir ki, ictimaiyyət sizə arxalanır, sizə güvənir. İnanır ki, siz Ali Baş Komandanın döyüş əmriylə döyüşəcəksiniz, qələbə qazanacaqsınız, torpaqlarımız işğaldan tamamilə azad edəcəksiniz.

2016-cı ilin Aprel döyüşlərində siz də, mən də məktəbli idik. Qazanılan qələbənin sevincini məktəbli kimi yaşadıq. İstəyirəm ki, torpaqlarımızın işğaldan azad ediləcəyi günün sevincini siz əsgər kimi, mən tələbə kimi yaşayım.




Vətəni cəsarətlə, mərdliklə qoruyan əsgər qardaşım! Vətəni belə qoruduğunuz üçün, qürurlanmağa haqqınız var. Sizin bu qürurunuz qazanacağınız qələbənin başlanğıcıdır.

Siz həm də döyüşlərdə şəhid olanların döyüş yolunu davam etdirirsiniz. Siz körpələrin ömrünün Günəşini, Ulduzunu, Ayını və təbiətin gözəlliklərini qorumaqla Vətən qarşısında borcunuzu əsl azərbaycanlı kimi yerinə yetirirsiniz.

Hərdən özümə ünvanladığım, özüm də cavablandırdığım sualları xatırlayıram:

Şəhid kimdir? - düşmənə qalib gələn.

Şəhid kimdir? - bayrağını kəfən bilən.

Şəhid kimdir? - azadlığın əlacı.

Şəhid kimdir? - millətinin baş tacı!

Sağlıqla qalın, əsgər qardaşım. Mən də, mənim tələbə yoldaşlarım da sizə inanırıq. İnanırıq ki, siz Ali Baş Komandanın döyüş əmrinə hazırsınız. Vətəni qorumaq üçün özünüzü qoruyun.

**Gülnar NƏZƏRLİ,**
**Bakı Qızlar Universitetinin II kurs tələbəsi**

# Amerikalı senator və konqresmen Xocalı soyqırımı ilə əlaqədar ABŞ-ın Azərbaycan icmasına müraciət ediblər

İllinoys ştatından olan senator Temmi Dakuort və bu ştatın birinci dairəsini ABŞ Konqresində təmsil edən konqresmen Bobbi Raş Xocalı qətliamının 28-ci ildönümü ilə əlaqədar ABŞ-ın Azərbaycan icmasına müraciət ediblər.

AZƏRTAC xəbər verir ki, Bobbi Raşın Çikaqoda yerləşən ABŞ-ın Orta Qərb ştatları üzrə Azərbaycan Mərkəzinə ünvanlanan məktubunda deyilir ki, mülkü əhaliyə, qadınlara, uşaqlara və qocalara qarşı törədilmiş bu soyqırımı aktı bəşəriyyətin üzərinə vurulmuş bir ləkədir. Bu dəhşətli insan qırğını nəinki sülh vaxtı, heç müharibə vaxtı da törədilməyib.

Temmi Dakuortun məktubunda qeyd edilir ki, ABŞ-ın Orta Qərb ştatları üzrə Azərbaycan Mərkəzi yerli sakinləri Azərbaycan mədəniyyəti, irsi, adət-ənənələri, habelə Azərbaycana qarşı törədilmiş tarixi ədalətsizliklər haqqında məlumatlandırır.

# İdman

## Azərbaycan atleti “Minsk U20 International Match” turnirində qızıl medal qazanıb



Fevralın 25-də Azərbaycanın gənc atleti Rüstəm Məmmədov Belarusda keçirilən 20 yaşadək idmançılar arasında "Minsk U20 International Match" turnirində qızıl medal qazanıb.

İdmançımız üç təkanla tullanma növündə 15,83 metr nəticə göstərərək Azərbaycan bayrağını zirvələrə yüksəldib.

Turnirdə ölkəmizi Aleksey Əliəkbərov, Teymur Salahzadə, Vahid Kərimov, Kəsgin Abbaszadə, Rüstəm Məmmədov, Yusif Nəzərov, Aydın Bədəlov, Lamiyə Vəliyeva və Yelena Pextireva təmsil edirlər.

İdmançılarımız turnirdə qaçış (60 m, 400 m, 1500 m), tullanma (üçtəkanla, hündürlüyə, uzunluğa) və nüvəitələmə yarışlarında öz qüvvələrini sınayırlar.

## Gimnastımız Gövhər İbrahimova Rumıniyada üç qızıl medal qazanıb



Rumıniyanın paytaxtı Buxarestdə bədii gimnastika üzrə "İrina Deleanu Cup" adlı beynəlxalq turnir keçirilib.

Turnirdə ölkəmizi Gövhər İbrahimova, Məryəm Əliyeva və Fatimə Əkbərova təmsil ediblər.

On yaşlı G.İbrahimova bu il çıxış etdiyi ilk beynəlxalq yarışda 3 qızıl medal qazanmağa müvəffəq olub. Belə ki, gimnastımız həm çoxnövçülük, həm gürzlər, həm də halqa ilə çıxışına görə bütün rəqiblərini üstələyərək fəxri kürsünün ilk pilləsinə yüksəlib.

M.Əliyeva çoxnövçülük, gürzlər və topla nümayiş etdirdiyi hər bir çıxışına görə 6-cı yerdə qərarlaşıb.

## Gənc azərbaycanlı şahmatçı “Aeroflot open” festivalının qalibi olub



Azərbaycanın gənc şahmatçısı Moskvada "Aeroflot open" beynəlxalq şahmat festivalında parlaq qələbəyə imza atıb.

Festivalın güclü A turnirində 9 turdan 6,5 xal toplayan Aydın Süleymanlı festivalın qalibi olub. Onunla eyni xala malik olan komandamızın üzvü Rauf Məmmədov isə əlavə göstəricilərə görə üçüncü yeri tutub. A turnirində digər şahmatçımız Vüqar Əsədli 6 xalla altıncı pillədə qərarlaşıb.

Yarışın B turnirində mübarizə aparan Məhəmməd Muradlı isə 6,5 xalla dördüncü olub.

## Yekaterinburqda keçiriləcək “Böyük dəbilqə” turnirində ölkəmizi 6 cüdoçu təmsil edəcək



Martın 13-15-də Rusiyanın Yekaterinburq şəhərində cüdo üzrə "Böyük dəbilqə" turniri keçiriləcək.

Kişilər arasında təşkil olunacaq yarışda Azərbaycanın 6 cüdoçusunun iştirakı planlaşdırılıb.

"Böyük dəbilqə" turnirində indiyədək 95 ölkədən 600-ə yaxın cüdoçu iştirakını təsdiqləyib.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 96
Nüsxə 3900